Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

# REGİON

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

№ 84 (1212) 6 may - 7 may 2016-cı il

# Tarixin özü - Qobustan

**Azərbaycan coğrafiyasında özünəməxsus yeri olan bölgələrimizdən biri də Qobustan rayonudur. Bu rayonun coğrafi mənzərəsi öz orijinallığı ilə insanın dərhal diqqətini çəkir. Çünki rayonun tarixiliyi bu yerləri görməyən, bu yerlərdə olmayan adamlarda qəribə bir maraq hissi yaradır. Hər kəs cəhd edir ki, Qobustana baş çəksin. Qobustan artıq respublikanın inkişaf edən, inkişafda olan rayonları sırasında öz yerini təsdiqləyib.**

**"...Qobustanın çox qədim tarixi vardır. Bizim bütün bu tarixi keçmişimiz və milli dəyərlərimiz lazımi səviyyədə qorunur və bununla bərabər, müasir şərait, müasir infrastruktur yaradılır. İnsanların yaşaması və işləməsi üçün bütün imkanlar vardır. İş yerləri açılır, məktəblər, xəstəxanalar, idman qurğuları tikilir, yollar, su kəməri çəkilir".**

***Azərbaycan Respublikasının Prezidenti***
***İlham Əliyev***

Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin imzaladığı Regionların İnkişafına dair Dövlət Proqramına uyğun olaraq ölkənin bütün bölgələrində sürətli inkişaf, abadlıq, quruculuq işləri aparılır. Həmin genişmiqyaslı işlərin sırasında, təbii ki, Qobustanın da öz yeri var. Əgər görülən işlərə rəqəmlərin dili ilə yanaşsaq, onda bu bölgədə həyatın necə qaynadığını, işlərin hansı sürətlə getdiyini ilk baxışdan duymaq, görmək olar.

2016-cı ilin birinci rübünün sosial-iqtisadi yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş iclasda rayonda görülən işlərdən danışılmış və gələcəkdə görüləcək tədbirlər müzakirə olunmuşdur. İclasda çıxış edən Qobustan rayon icra hakimiyyətinin başçısı Adil Məmmədov aprel ayının 9-da möhtərəm Prezidentimizin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası barədə məlumat vermiş, iclasda respublikamızın sosial-iqtisadi vəziyyətinin təhlil olunduğunu, birinci rübdə sosial-iqtisadi və ictimai-siyasi sahədə qazanılmış böyük uğurlar barədə ətraflı danışıldığını, qarşıda duran vəzifələrin müəyyənləşdirildiyini vurğulamışdır: "Ölkəmizdə aparılan islahatlarla bağlı cənab Prezident bildirmişdir ki, bu islahatlar davam edəcək və 2016-cı il islahatlar ili olacaq. Ölkəmizdə yoxsulluğun və işsizliyin aradan qaldırılması, sosial müdafiə tədbirlərinin gücləndirilməsi, əhalinin ərzaq məhsulları ilə daxili imkanlar hesabına təmin olunması üçün ardıcıl tədbirlərin görüldüyünü diqqətə çatdıran cənab Prezident respublikamız üçün ənənəvi sahələrin - pambıqçılığın, baramaçılığın, taxılçılığın inkişafı ilə bağlı müvafiq tapşırıq və tövsiyələrini vermişdir. Cənab Prezident bildirmişdir ki, sosial siyasət həmişə prioritet olmuşdur və olacaq. Birinci rübdə atılan addımlar bir daha onu göstərir ki, Azərbaycan sosial dövlətdir. Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır".

2016-cı ilin birinci rübündə Qobustanda da bir sıra əhəmiyyətli işlər görüldüyünü deyən A.Məmmədov son illərdə rayonda gedən sosial-iqtisadi inkişaf, yolların çəkilməsi, təbii qaz, elektrik enerjisi və içməli su təminatının yaxşılaşdırılması prosesinin daha sürətlə davam etdirildiyini vurğulamışdır: "Cənab Prezidentimizin göstərişinə əsasən respublikamızın hər yerində olduğu kimi Qobustan rayonunda da bu ilin birinci rübündə abadlıq işləri üzrə 60, çoxmənzilli binaların təmiri üzrə 49, neft şirkətinin idarələri üzrə 54, "Azəravtoyol" üzrə 30, "Azərişıq" ASC üzrə 6, Qobustan Sukanal idarəsi üzrə 5, Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən isə 7 iş yeri olmaqla, ümumilikdə 212 ictimai iş yeri yaradılmışdır ki, bu iş yerlərində 184 vətəndaş müvafiq işlə təmin edilmişdir. Bundan əlavə Qobustan rayonunda su və kanalizasiya sisteminin qurulması üzrə layihənin həyata keçirilməsi işlərində 200-dən artıq rayon sakini çalışır.



Aztəminatlı ailələrin mənzillə təmin olunması məqsədilə çoxmənzilli binaların tikintisi layihəsi çərçivəsində Qobustan şəhərində də 36 mənzilli binanın tikintisi nəzərdə tutulur ki, bu da aztəminatlı ailələrin güzəştli şərtlərlə mənzillə təmin olunmasına, tikinti işlərinin həcminin artmasına, yeni iş yerlərinin yaradılmasına gətirib çıxaracaqdır. Binanın tikintisi məqsədilə şəhərdə 1,6 hektar sahə ayrılmışdır.

İqtisadiyyat Nazirliyi tərəfindən rayonun turizm potensialının yüksəldilməsi, özünüməliyyələşmənin təmin olunmasına köməklik məqsədilə şəhərdə 3 ulduzlu otelin tikintisi təklif olunmuşdur ki, bu məqsədlə 1,0 hektar torpaq sahəsi ayrılmışdır. Əgər sahibkarlar tərəfindən təşəbbüs olarsa bunun üçün güzəştli şərtlərlə kreditin verilməsi də nəzərdə tutulur.

Rayonda əhalinin sosial müdafiəsi məsələləri daim nəzarətdə saxlanılır. Novruz bayramı ərəfəsində İcra hakimiyyəti tərəfindən 513 nəfər ailəyə bayram sovqatı verilmişdir.

2016-cı ilin birinci rübündə 2096 nəfərə sosial müavinət, 658 ailəyə Ünvanlı Dövlət Sosial Yardımı, 4619 nəfərə pensiya verilməsi təmin edilmiş, gecikmə hallarına yol verilməmişdir.

Rayonda şəhid ailəsi və 2 nəfər Qarabağ əlili üçün fərdi mənzillərin tikintisi davam edir.

A. Məmmədovun sözlərinə görə, rayonun bütün yaşayış məntəqələri demək olar ki, fasiləsiz elektrik enerjisi ilə təmin edilir, qısamüddətli açılmaların aradan qaldırılması üçün kabelləşməyə başlanılmışdır. Rayon əhalisinin 93 faizi təbii qazdan istifadə edir, hazırda digər yaşayış məntəqələrinin qazlaşdırılması üçün müvafiq tədbirlər görülür.

**(ardı gələn sayımızda)**

***Şamxal ŞƏBİYEV***




AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ